# AİHM - AZƏRBAYCAN, 2023

## Yarımillik Analiz

İyul, 2023

MEDIA RIGHTS GROUP

***MEDİA HÜQUQU QRUPU*** - Azərbaycanda xüsusilə media azadlığı ilə bağlı qanunvericiliyi və təcrübəni qabaqcıl meyarlara uyğunlaşdırmaq, medianı və jurnalistləri qorumaq, ifadə azadlığı, eləcə də digər əsas hüquqların, qabaqcıl təcrübələrin təşviqi sahəsində çalışan vətəndaş cəmiyyəti təşəbbüsüdür.

***BU ANALİZ*** Avropa Insan Haqları Məhkəməsinin (AİHM) 2023-cü ilin birinci yarısında Azərbaycanla əlaqəli fəaliyyətləri haqdadır. Analizdə AİHM-in yarım il ərzində Azərbaycandan göndərilmiş ərizələr üzrə qəbul etdiyi bütün qərar və qərardadlara, onların qısa təsvirinə yer verilib. AİHM-in müəyyən etdiyi pozuntular və təzminatlar, AİHM-in bir il ərizndə Azərbaycan hökuməti ilə komunikasiya etdiyi ərizələr bu sənəddə ümumiləşdirilib. Həmçinin, AİHM-in Azərbaycanla bağlı qəbul etdiyi qərarların icra durumu sahəsindəki gəlişmələr şərh olunub.

*Analizi yazdı: Xalid Agali, aghallkhall@gmail.com www.aihmaz.org*

## İÇİNDƏKİLƏR:

Ümumi analiz

Mahiyyəti üzrə çıxarılmış qərarlar

*AİHM-in pozuntu tapmadığı işlər*

*AİHM-in pozuntu müəyyən etdiyi işlər*

Baxılmasını gözləyən işlərin siyahısından çıxarılan ərizələr

*Dostca anlaşma ilə başa çatan işlər*

*Hökumətin təktərəfli bəyannaməsi əsasında başa çatan işlər*

*Digər əsaslarla başa çatan işlər*

Qəbuledilməz sayılan ərizələr

AİHM-in 2022-ci ildə Azərbaycan hökuməti ilə kommunikasiya etdiyi ərizələr

2022-ci ildə icra edilmiş (icrasına nəzarət qapadılmış) AİHM-in Azərbaycanla bağlı qərarları

Cədvəllər

*AİHM-in 6 ayda Azərbaycanla bağlı müəyyən etdiyi pozuntular*

*6 ayda müəyyən edilmiş ədalətli əvəz (mahiyyəti üzrə qərarlar, dostca anlşamalar və təktərəfli bəyannamələr üzrə)*

## ÜMUMİ ANALİZ

Avropa İnsan Haqları Məhkəməsi (AİHM) 2023-cü ilin birinci yarısında Azərbaycanla bağlı 60 qərar və qərardad qəbul edib. Həmin qərardadlar ümumilikdə 180-dən artıq ərizə əsasında çıxarılıb. Müqayisə üçün, AİHM Azərbaycanla bağlı 2022-ci il ərzində 170-dən artıq ərizə əsasında 55-dən artıq qərar və qərardad qəbul etmişdi.

Məhkəmə yarım il ərzində Azərbaycanla bağlı mahiyyəti üzrə 25 qərar elan edib. Həmin qərarların 24-də iddia olunan pozuntuların azı 1-i tanınıb. Yalnız bir işdə pozuntu müəyyən edilməyib. 2022-ci il ərzində AİHM Azərbaycanla bağlı mahiyyəti üzrə 23 qərar qəbul etmişdi, həmin işlərdən birində pozuntu tapılmamışdı.

AİHM 2023-cü ilin birinci yarısında Azərbaycanla bağlı 35 qərardad qəbul edib. 135-dən çox ərizəni əhatə edən həmin qərardadlar tərəflərin dostca anlaşmalarına, hökumətin təqdim etdiyi təktərəfli bəyannamələrə əsaslanır. Qərardadların 10-u qəbuledilməzlik və digər əsaslarla bağlıdır. 2022-ci ildə AİHM Azərbaycandan göndərilmiş 91 ərizə əsasında 33 qərardad qəbul etmişdi.

AİHM 2023-cü ilin birinci yarısında Azərbaycanla bağlı qəbul etdiyi 19 qərardad (80-dən artıq ərizə) tərəflərin dostca anlaşmalarına əsaslanır, 2022-ci ildə 22 belə qərardad (69 ərizə) çıxarılmışdı. 2022-ci ildə hökumətin təqdim etdiyi təktərəfli bəyannamə əsasında 5 qərardad (15 ərizə) çıxarılmışdı, 2023-cü ilin birinci yarısında isə 6 belə (40 ərizə) qərardad çıxarılıb.

AİHM 2023-cü ilin birinci yarısında Azərbaycanla bağlı işlərdə ən çox mülkiyyət hüququnun pozuntusunu tapıb. Məhkəmə 21 ərizəçiyə münasibətdə 1 Saylı Protokolun 1-ci maddəsinin pozuntusunu tanıyıb. Məhkəmə 14 ərizəçiyə münasibətdə ədalətli məhkəmə araşdırması, 8 ərizəçiyə münasibətdə isə toplaşmaq azadlığı hüququn pozuntusunu tapıb. Bunlardan başqa, Azərbaycan hökuməti 8 ərizəçiyə münasibətdə Konvensiyanın 3-cü və 13-cü, 20 ərizəçiyə münasibətdə 5-ci, 36 ərizəçiyə münasibətdə isə 6-cı maddələrinin pozuntusunu etiraf edib. Müqayisə üçün, AİHM Azərbaycanla bağlı qərarlarında həm 2021-ci, həm də 2022-ci illərdə ən çox azadlıq və toxunulmazlıq, işgəncəyə məruz qalmamaq və ədalətli məhkəmə araşdırması hüquqlarının pozulmasına qərar vermişdi.

2023-cü ilin birinci yarısında AİHM-in qərarlarının icrasına nəzarət edən Avropa Şurası Nazirlər Komitəsi (AŞ NK) Azərbaycanla bağlı 7 qərarın icrasına nəzarəti qapadıb. Həmin qərarlar 15 ərizəçiyə münasibətdə çıxarılmışdı. İcrasına nəzarət qapadılan işlərin 3-ü tərəflərin dostca anlaşmalarına əsasın çıxarılmış qərardardlar idi. 3 iş təkrarlanan (repetative), 1 iş isə aparıcı (leading) iş idi. 2021-ci ildə Avropa Şurası Nazirlər Komitəsi AİHM-in Azərbaycanla bağlı 12 qərarı, 2022-ci ildə isə 25 qərarı icra edilmiş saymışdı.

## AİHM-in MAHİYYƏTİ ÜZRƏ ÇIXARDIĞI QƏRARLAR

**AİHM 2023-cü ilin 6 ayında Azərbaycanla bağlı mahiyyəti üzrə 25 qərar qəbul edib. Həmin qərarların 24-də iddia edilən pozuntuların əksəriyyəti tanınıb. Məhkəmə yalnız 1 işdə pozuntu tapmayıb.**

### *Azərbaycanla bağlı qərarlarda AİHM-in pozuntu tapmadığı işlər*

İbrahimbəyov və başqaları Azərbaycana qarşı - AİHM bu işlə bağlı mahiyyəti üzrə qərarında ərizəçilərin mülkiyyət hüquqlarına müdaxilənin baş vermədiyi qənaətinə gəlib. Məhkəmənin qənaətincə, ərizəçilərin mülkiyyət hüquqlarına müdaxilə, uyğun daxili qanunvericiliyin tətbiqinin qanuni nəticəsi olub, qanunun aliliyinə hörməti təmin etmək məqsədi daşıyıb. Məhkəmə eyni zamanda ərizəçilərin mülkiyyət hüquqlarına müdaxilənin kompensasiya edilməsi hüquqlarının olduğunu, ancaq onların bu haqlarından yararlanmaq üçün gərəkli hüquqi addımları atmadığını qeyd edib. Həm də ərizəçilər kompensasiyanı lazımi qaydada tələb edəcəkləri halda belə onu ala bilməyəcəklərini isbat edən hər hansı arqument təqdim etməyiblər. Faktiki olaraq, ərizəçilərin daxili məhkəmələr qarşısındakı iddiaları torpaq sahələrinin geri verilməsi tələbi ilə məhdudlaşıb.

Bu işdə ərizəçilər Rüstəm İbrahimbəyov, Şöhrət İbrahimbəyova və Lalə Əfəndiyeva 1939, 1966 və 1941-ci il doğumlu Azərbaycan vətəndaşlarıdır. Ərizəçilərdən cənab İbrahimbəyov vəfat edib, digər ərizəçilər Bakıda yaşayırlar. Məhkəmə işi ərizəçilərə məxsus olan torpaq sahəsinin sənədlərinin Dövlət Neft Şirkətinin (SOCAR) tələbi ilə qanunsuz olaraq ləğv edilməsi iddiaları ilə bağlı idi. Konvensiyanın 6-cı maddəsinə (ədalətli dinləmə hüququ) və Konvensiyanın 1-ci Protokolunun 1-ci maddəsinə (mülkiyyətin qorunması) söykənən ərizəçilər, torpaq sahələrinin əllərindən alınmasının qanunsuzluğundan, məhkəmə qərarlarının əsaslandırılmadığından şikayət etmişdilər.

### *Azərbaycanla bağlı qərarlarda AİHM-in pozuntular müəyyən etdiyi işlər*

AİHM jurnalistlərlə bağlı olan bir neçə işdə iddia olunan pozuntuları tanıyıb. Xural qəzeti və Əvəz Zeynalov Azərbaycana qarşı (1) işində mübahisə predmeti qəzetdə KİV Dövlət Dəstəyi Fondunun sabiq rəhbəri haqqında yayılmış məqalə idi. Həmin məqalədə dövlətin KİV-ə dəstək məqsədilkə ayırdığı vəsaitlərin mənimsənildiyini iddia edən müəllif Fondun rəhbərini "mətbu qəssab" adlandırmışdı. Yerli məhkəmələr buna görə, qəzeti və onun baş redaktorunu 5 min manat cərimələmişdilər. Avropa Məhkəməsi bu işdə ərizəçinin ifadə azadlığı hüququna müdaxilənin baş verdiyi qənaətinə gəlib, hesab edib ki, ərizəçinin ifadə azadlığına müdaxilə demokratik cəmiyyətdə zəruri olmayıb. Zayidov Azərbaycana qarşı (2) işində isə məhkəmə ərizəçiyə münasibətdə ədalətli məhkəmə araşdırması hüququnun pozulduğuna qərar verib. "Azadlıq" qəzetinin redaktoru olan Zayidov illər öncə qəsdən sağlamlığa zərər vurma və xuliqanlıq ittihamı ilə azadlıqdan məhrum edilmişdi. Ərizəçi ittiham və məhkum edilməsinin quruma olduğunu, tənqidi düşüncələrinə görə cəzalandırldığını iddia edirdi. Avropa Məhkəməsi onun iddialarını əsaslı hesab edib. Sərdar Əlibəyli Azərbaycana qarşı (3) işinin məzmunu jurnalist olan ərizəçinin cinayət məsuliyyətinə cəlb olunması haqda idi. Məhkəmə jurnalistin yazılarına görə, azadlqıdan məhrum edilməsinin ifadə azadlığı hüququnu pozduğu qənatəini təkrarlayıb.

Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutu İctimai Birliyi Azərbaycana qarşı (4) işi jurnalistika sahəsində ixtisaslaşmış QHT-nin ofisində axtarış aparılmasının qanunsuzluğu iddilarına aid idi. Ərizəçi rəsmi qurumların ofisdəki sənədləri, o cümlədən kompüterləri, diskləri, USB flash daşıyıcılarını, QHT-nin möhürünü və ştampını qanunsuz götürdüyünü bildirirdi. Ərizədə şəxsi həyata hörmət, birləşmək, mülkiyyət hüquqularının pozuntusu mübahisələndirilmişdi. Ərizəçi təşkilat ofisdə axtarış və götürmənin həyata keçirilməsinin siyasi məqsədli olduğunu iddia edirdi. Məhkəmə bu işdə şəxsi həyata hörmət hüququnun pozuntusunu tanıyıb. İREX Azərbaycana qarşı (5) işində ərizəçi beynəlxalq humanitar təşkilat idi, həmin təşkilatın ofisində yerli QHT və beynəlxalq təşkilatların nümayəndəliklərinə qarşı başlanmış cinayət işi çərçivəsində axtarış aparılmış, bütün sənədləri və kompüterləri götürülmüş, bank hesabına həbs qoyulmuşdu. Avropa Məhkəməsinə görə, bank hesablarına həbs qoyulması ilə ərizəçinin mülkiyyət, ofisində axtarış və götürmə aparılması ilə şəxsi həyata hörmət hüququ pozulub. Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi Azərbaycana qarşı (6) işində isə Avropa Məhkəməsi

QHT və onun təsisçiləri olan ərizəçilərin birləşmək hüququnun pozuntusu iddialarını tanıyıb. Bu işdə Ədliyyə Nazirliyi ərizəçi QHT-nin dövlət qeydiyyatına alınmasından imtina etmişdi.

AİHM 11-ci maddənin pozuntusunu digər bir neçə işdə də tanıyıb. Dinc toplaşmaq hüququndan yararlanması kontkestində müxalif partiya fəalının saxlanılması, sonra isə xuliqanlıqda ittiham edilib, azadlıqdan məhrum edilməsindən bəhs edən Elnur Məcidli Azərbaycana qarşı (7) işində Avropa Məhkəməsi ərizəçi haqda məhkəmələrin ədalətsiz olmasına qərar verib. 18 ərizənin birləşdirildiyi Aynurə İmranova və başqalarının işində (8) Azərbaycanda QHT-lərə açılmış cinayət işi çərçivəsində bütün ərizəçilərin bank hesablarına həbs qoyilmasının qanunsuzluğundan – ərizəçilərin mülkiyyət hüququna əsassız müdaxilə baş verməsindən şikayət olunurdu. Ərizəçilərin arqumentlərini əsaslı sayan məhkəmə, Qarayev Azərbaycan qarşı (9) işində də eyni pozuntunun tanınmasına qərar verib. İlkin Rüstəmzadə Azərbaycana qarşı (10) işində ədalətli məhkəmə araşdırması və ifadə azadlığı hüquqlarının pozuntusunu təsbit edən Məhkəmə, QHT-lərin qeydiyyatından imtina edilməsi ilə bağlı olan Emin Bəşirli və başqaları Azərbaycana qarşı (11), Qubad Bayramov və Rəcəb İmanov Azərbaycana qarşı (12), Aynurə İmranova və Asya Əhmədova Azərbaycana qarşı (13) və Rövşən Mahmudov və başqaları Azərbaycana qarşı (14) işlərində bütün ərizəçilərə münasibətdə Konvensiyanın 11-ci maddəsinə əməl edilmədiyi qənaətinə gəlib.

Vüqar Abışovun işində (15) ərizəçi iddia edirdi ki, tutularkən döyülüb, polisdə saxlanarkən etirafedici ifadələr verməsi üçün kobud rəftara və hədə-qorxuya məruz qalıb, müxtəlif bədən xəsarətləri alıb. Hər hansı qanun pozuntusuna görə yox, məhz tənqidi düşüncələrinə görə saxlanılıb həbs edildiyini bildirən ərizəçi, həmçinin, polisdə qanunla müəyyən edilmiş müddətdən artıq saxlanıldığını, öz seçdiyi vəkilə çatımına imkan verilmədiyini də iddia edirdi. AİHM-ə görə, ərizəçiyə münasibətdə Konvensiyanın 3-cü maddəsi həm prosessual, həm də maddi baxımdan pozulub. Əyyubzadə Azərbaycana qarşı (16) və Əfqan Muxtarlı və Gülağa Aslanlı-nın işində (17) azadlıq və toxunulmazlıq hüququnun pozuntusu iddia edilirdi. Əyyubzadə işində müxalif fəal olan ərizəçi saxlanılması və məhkəməyə qədər həbs edilməsinin, Muxtarlı və Aslanlı isə etiraz aksiyasından əvvəl inzibati məsuliyyətə cəlb edilmələrinin qanunsuzluğunu qaldırmışdılar. Məhkəmə hər iki işdə Konvensiyanın 5.1-ci maddəinin pozulmasına qərar verib. Muxtarlı və Aslanlının işində ədalətli məhkəmə araşdırması və birləşmək azadlığı hüququnun pozuntusu da tanınıb.

Fədayə Qayıbova Azərbaycana qarşı (18) işində ərizəçi kürəkəninə açılmış cinayət işi çərçivəsində onun mənzilində axtarış aparılmasının, ona məxsus pul və əşyaların götürülməsinin qanunsuzluğunu qaldırmışdı. Məhkəmə bu işdə həm şəxsi həyata hörmət, həm də mülkiyyət hüququnun pozuntusunu tanıyıb. Abbasəliyeva Azərbaycana qarşı (19) işində ərizəçi keçmiş baş həkim idi. Yerli qəzetlərdən birində onun haqda bir neçə məqalə yayınlanmış, onun vəzifəsinə layiq olmadığı ifadə edilmişdi. Məqalə müəllifi bu qənaətini ərizəçinin qardaşının 1995-ci ildə dövlət çevrilişinə cəhddə iştirak etməkdə təqsirli bilinməsi ilə əsaslandırırdı. Ərizəçi məqalələrin yayılmasından bir qədər sonra baş həkim vəzifəsindən azad edilmişdi. O, həm işəgötürənə, həm də qəzetə qarşı məhkəmə iddiası qaldırsa da uğursuz olmuşdu. Avropa Məhkəməsi bu işdə mübahisəli məqalələrin ifadə azadlığı hüququnun sərhədlərini aşdığı, ərizəçinin şəxsi həyata hörmət hüququnu pozduğuna qərar verdi. Dursun Əliyevin işi (20) keçmiş polis olan ərizəçiyə narkotik alveri ittihamı ilə ona cinayət işinin açılması ilə bağlıydı. Ərizəçi iddia edirdi ki, yuxarı rəisləri ilə ixtilaflarının olması səbəbindən ittiham edilib, uydurma və ya etibar edilməməli olan sübutlar əsasında məhkum olunub. Avropa Məhkəməsi bu işdə ərizəçinin ədalətli məhkəmə araşdırması hüququnun pozuntusunu tanıyıb. Məhkəmə mənzilin sökülməsini nəzərdə tutan yerli məhkəmə qərarlarının mübahisələndirildiyi Əhmədov və başqalarının işində (21) isə şəxsi həyata hörmət hüququnun pozuntusunu müəyyən etdi.

Ayxan Axundov Azərbaycana qarşı (22) işi ərizəçi ilə özəl yükdaşıma şirkəti arasında əmlak mübahisəsi ilə bağlı mülki məhkəmə proseslərinin ədalətsizliyi (mülkiyyət və ədalətli məhkəmə araşdırması hüququ) iddialarına aid idi. Lətif Əhmədov Azərbaycana qarşı (23) işində də mülkiyyət və ədalətli məhkəmə araşdırması hüququnun pozuntusu mübahisələndirilmişdi. Məhkəmə hər iki işdə 6-cı maddənin pozuntusunu tanıyıb. Laləzar Məmmədova Azərbaycana qarşı (24) işində ərizəçi 1996-cı ildə dələduzluqla üzləşməsi səbəbindən evsiz qalmış, o, ali təhsil müəssisələrindən birinin bazasına aid sahədə yerləşməli olmuşdu. 15 il sonra həmin qeyri-yaşayış binasından çıxarılmasını qanunsuz sayan ərizəçinin iddiasını AİHM də əsaslı hesab edib, ərizəçiyə münasibətdə Konvensiyanın 8-ci maddəsinin pozulmasına qərar verib.

## BAXILMASINI GÖZLƏYƏN İŞLƏRİN SİYAHISINDAN ÇIXARILAN ƏRİZƏLƏR

### *Ərizəçilərlə hökumətin dostca anlaşmalarına əsasən baxılacaq işlərin siyahısından çıxarılan ərizələr*

Yarım il ərzində Azərbaycandan göndərilmiş 80-dən artıq ərizəyə baxılması tərəflərin dostca anlaşmalarına əsasən, başa çatıb. Həmin işlərdə hökumət ərizəçilərə təzminat ödəmək öhdəliyi götürüb. Hökumət bəzi işlərdə həmçinin, icrası yubanan milli məhkəmə qərarlarının icra edilməsi, habelə, qanunsuz verilmiş milli məhkəmə qərarlarının lığvi ilə bağlı öhdəlik götürüb. AİHM dostca anlaşılan ərizələr üzrə ümumilikdə 19 qərardad elan eedib.

11 ərizənin birləşdirildiyi Miriyev və Başqaları Azərbaycana qarşı işi milli məhkəmə qərarlarının icra edilməməsindən (6-cı maddə), Səmədov Azərbaycana qarşı işində isə dinc nümayiş iştirakçısı olan ərizəçiyə qeyri-mütənasib tədbirlərin tətbiqindən (11-ci maddə) şikayət edilmişdi. Müxalif partiya fəalının azadlıqdan məhrum edilməsinin qurama ittihamlara söykənməsi iddiaları ilə bağlı olan İlqar Rzayev Azərbaycana qarşı işində 5, 14, 18-ci maddələrin, Zöhrə Hacıyeva Azərbaycana qarşı işində isə mülkiyyət hüququnun pozuntusu mübahisələndirilmişdi.

Füzuli Hüseynov və Başqaları Azərbaycana qarşı (5 ərizəçi), Cabbar Savalanlı və Başqaları Azərbaycana qarşı (17), Rövşən Məmmədli və Azər Kazımzadə Azərbaycana qarşı işlərində ərizəçilər siyasi aktivistlər, müxalif partiya fəalları idi. Onlar məhkəmə qarşısında birləşmək və ədalətli məhkəmə araşdırması hüquqlarının pozuntusunu qaldırmışdılar. Hikmət Səmədov və Başqaları (5) Azərbaycana qarşı işində isə ərizəçilər məhkəmədə mülkiyyət və ədalətli məhkəmə araşdırması hüquqlarının pozuntusunu mübahisələndirmişdilər.

Hüseynov və Başqaları (5) işində 11-ci, Həsənov və Başqaları (2) işində 5 və 6-cı, Abulov və Başqalarının (8) işində 11 və 6-cı, Quliyev və Başqalarının işində (4) 5-ci, Hacıyev və Zeynalov Azərbaycana qarşı işində 5 və 6-cı maddələrin, Əsgərova Azərbaycana qarşı işində isə mülkiyyət hüququnun pozuntusu iddiaları qaldırılmışdı.

Gültəkin Hacıbəyli Azərbaycana qarşı işində parlamentin keçmiş üzvü və müxalif siyasətçi olan ərizəçi Konvensiyanın 8-ci maddəsinə əsaslanaraq, daxili məhkəmələrin onun nüfuzunu qorumamasından şikayət etmişdi. Azər Əliyev və Başqaları (1) Azərbaycana qarşı işində ərizəçilər barələrindəki inzibati məhkəmə icraatlarının Konvensiyanın 6-cı maddəsinin pozuntusu ilə müşayət olunduğunu iddia edirdilər. Elşən İsmayılov Azərbaycana qarşı işində ərizəçinin azadlıq və toxunulmazlıq hüququnun pozuntusu (həbsin əsassızlığı) mübahisələndirilmişdi.

Anar Məmmədov və Başqaları-nın işində 4 ərizəçi kütləvi aksiyalar zamanı qeyri-qanuni və ya qeyri-proporsional tədbirlərə məruz qaldıqlarını iddia edirdilər. Əfqan Sadıqov və Başqaları-nın (8) işində ərizəçilərin hamısı inzibati xətalar üzrə icraat zamanı məhkəmələrin ədalətsizliyindən, bir ərizəçi isə azadlıq və toxunulmazlıq hüququnun pozuntusundan şikayət etmişdi.

### *Hökumətin təktərəfli bəyannamələrinə əsasən baxılacaq işlərin siyahısından çıxarılan ərizələr*

2023-cü ilin ilk yarısında AİHM hökumətin təktərəli bəyannaməsinə saslanan 6 qərardad elan edib. Həmin qərardadlar ümumilikdə 40-dan çox ərizə barəsindədir. Həmin işlərdə hökumət iddia olunan pozuntuları etiraf edib, ərizəçilərə təzminat ödəmək öhdəliyi götürüb.

8 ərizənin birləşdirildiyi Cabbar Cabbarov və başqaları Azərbaycana qarşı işində “Nardaran hadisələri” zamanı həbs edilib, məhkum olunan ərizəçilər Konvensiyanın 3-cü və 13-cü maddələrinin pozuntularını mübahisələndirmişdilər. Rahim Şaliyev işində 6-cı, Ərəstun Baxşəliyev-in işində isə 11-ci maddənin pozuntusu mübahisələndirilmişdi.

Ümman Səfərov və başqalarınının (19) işində ərizəçilər siyasi aktivistlər idi. Onlar ədalətli məhkəmə araşdırması, eləcə də azadlıq və toxunulmazlıq hüquqlarının pozulduğunu iddia edirdilər.

Ruslan Qarayev və Başqaları Azərbaycana qarşı (9) işində ərizəçilər barələrindəki inzibati icraatlar zamanı onlara münasibətdə ədalətli məhkəmə araşdırması hüququnun pozulduğunu iddia edirdilər. Xətai Nəbiyev və Başqaları Azərbaycana qarşı (5) işində də Ruslan Qarayev və Başqaları-nın işində olduğu kimi Konvensiyanın 6-cı maddəsinin pozuntusu mübahisələndirilmişdi.

### *Digər əsaslarla baxılacaq işlərin siyahısından çıxarılan ərizələr*

Adil İsmayılov və Partnyorları Azərbaycana qarşı işi bir sıra qeyri-hökumət təşkilatlarının iddia edilən qanunsuz fəaliyyəti ilə bağlı onlara açılmış cinayət işi çərçivəsində hüquq firması olan ərizəçi şirkətin bank hesablarının dondurulması ilə bağlı idi. AİHM qarşısında mülkiyyət hüququnun pozuntusunu mübahisələndirən ərizəçi şirkətin nümayəndəsi AİHM-in məktublarına cavab verməyib. Sərdar Qasımov Azərbaycana qarşı işi də qeyri-hökumət təşkilatlarına açılmış cinayət işi çərçivəsində peşəsi vəkillik olan ərizəçinin bank hesablarına yerli məhkəmələrin qərarları ilə həbs qoyulması ilə bağlı idi. Ərizəçi AİHM qarşısında iddia edirdi ki, bank hesablarının üzərinə həbs qoyulması onun mülkiyyət hüququnu pozub. Bu ərizə də kommunikasiya alınmadığına görə, siyahıdan çıxarılıb.

---

## AİHM-in QƏBULEDİLMƏZ SAYDIĞI ƏRİZƏLƏR

**AİHM 2023-cü ilin birinci yarısında Azərbaycandan göndərilmiş 14 ərizəni qəbuledilməz hesab edib. Qəbuledilməzliklə bağlı ümumilikdə, 8 qərardad elan edilib.**

7 ərizənin birləşdirildiyi Günel Yusifli və Başqaları Azərbaycana qarşı işi dövlət əmlakının özəlləşdirilməsi kontekstində iddia olunan pozuntular haqda idi.

Azər Mehtiyev-in, Yaşar Ağazadə-nin və Xalid Ağaliyev-in işlərində ərizəçilər dövlət qurumlarına göndərdikləri informasiya sorğusuna cavab verilməməsinin onların ifadə azadlığı hüququnu pozduğunu iddia edirdilər. Məhkəmə ərizəçilərin journalist funksiyası yerinə yetirdiklərini, informasiyaları ictimai debatlara töhfə məqsədilə əldə etməyə çalışdıqlarını isbat edə bilmədiklərini öz qərarında ifadə edib.

Konvensiyanın 6, 11, 13 və 18-ci maddəsinin pozuntusu mübahisə edilən Qafqaz Media Araşdırmaları Mərkəzi Azərbaycana qarşı işində isə AİHM ərizəçinin daxili müdafiə vasitələrini tükəndirmədiyi əsası ilə qəbuledilməzliklə bağlı qərar verib. Ədalətli məhkəmə araşdırması (7 il davam edən milli məhkəmə prosedurları – ağlabatan müddət) və mülkiyyət hüququnun pozuntusu mübahisə edilən Bəsti Orduxanova Azərbaycana qarşı işində isə AİHM öz qərarında ərizəçinin iddialarını əsaslandıra bilmədiyini ifadə edib.

AİHM oxşar pozuntuların mübahisələndirildiyi Şahmar Məmmədov Azərbaycana qarşı və “Yevlax Avtovagzal” Açıq Səhmdar Cəmiyyəti Azərbaycana qarşı işlərini də qəbuledilməz sayıb.

## AİHM-in 2023-cü İLİN BİRİNCİ YARISINDA AZƏRBAYCAN HÖKUMƏTİ İLƏ KOMMUNİKASİYA ETDİYİ ƏRİZƏLƏR

**AİHM 2023-cü ilin birinci yarısında Azərbaycandan göndərilmiş 23 işi hökumətlə kommunikasiya etməyə başlayıb. Həmin işlər çərçivəsində kommunikasiya edilən ərizələrin ümumi sayı 32-dir - AİHM oxşar ərizələri bir işdə bilrəşdirib.**

Hökumətlə kommunikasiya edilmiş ərizələrdə Konvensiyanın 2-ci (yaşamaq), 3-cü (işgəncənin yolverilməzliyi), 5-ci (azadlıq və toxunulmazlıq), 6-cı (ədalətli məhkəmə araşdırması), 7-ci (Qanunda nəzərdə tutulmamış cəzanın yolverilməzliyi), 8-ci (şəxsi həyata hörmət), 9-cu (dini etiqad), 10-cu (ifadə azadlığı), 11-ci (birləşmək azadlığı), 13-cü (səmərəli hüquqi müdafiə vasitələrinə malik olmaq), 14-cü (ayrı-seçkiliyin yolverilməzliyi), 18-ci (hüquqlarla bağlı məhdudiyyətlərdən istifadənin hədləri) maddələrinin, habelə, 1 Saylı protokolun 1-ci (mülkiyyət hüququ), 7 Saylı protokolun 2-ci (Cinayət işlərinə dair hökmlərdən ikinci instansiyaya şikayət vermə hüququ), 4 Saylı protokolun 2-ci (hərəkət azadlığı hüququ) maddələrinin pozuntuları iddia edilir.

2023-cü ilin birinci yarısında kommunikasiya edilmiş 23 işin analizi göstərir ki, ərizəçilər ən çox ədalətli məhkəmə araşdırması hüququnun pozuntusundan şikayət edirlər. AİHM yarım ildə 32 ərizə üzrə kommunikasiya zamanı hökumətə 6-cı maddənin pozuntusu ilə bağlı 13 sual göndərib. Sonrakı sırada Konvensiyanın 5-ci və 10-cu maddələrinin pozuntusu iddiaları gəlir – AİHM 8 işdə bu hüquqların pozuntusu iddialarını araşdırır.

AİHM yarım ildə 8 işdə ifadə azadlığı, 7 işdə hərəkət azadlığı hüququnun pozuntusu ilə bağlı hökumətə suallar göndərib.

---

## AİHM-in AZƏRBAYCANLA BAĞLI QƏRARLARININ İCRASI – 2023-cü İLİN BİRİNCİ YARISI

**2023-cü ilin birinci yarısında AİHM-in Azərbaycanla bağlı 7 qərarı icra edilmiş sayılıb. Qərarların icrasına nəzarət edən Avropa Şurası Nazirlər Komitəsi (AŞ NK) yarım il ərzində AİHM-in Azərbaycanla bağlı çıxardığı 7 qərarın icrasına nəzarəti qapadıb. Həmin qərarlar 15 ərizəçiyə münasibətdə çıxarılmışdı.**

İcrasına nəzarət qapadılan işlərin 3-ü tərəflərin dostca anlaşmalarına əsasın çıxarılmış qərardardlar idi. 3 iş təkrarlanan, 1 iş isə aparıcı iş idi.

Balammədov və başqaları Azərbaycana qarşı, İsabtov Azərbaycana qarşı və Mahmudov Azərbaycana qarşı işində tərəflər dostca anlaşmışdılar.

AŞ NK təkrarlanan işlərdən Mustafa Çingiz Azərbaycana qarşı (13 aprel 2023), Əliyev və başqaları (5 ərizə) Azərbaycana qarşı (5 aprel 2023) və Mirqədirov Azərbaycan və Türkiyəyə qarşı (15 mart 2023) işləri üzrə qərarların icrasına nəzarəti qapadıb. Əliyev və başqaları (5 ərizə) Azərbaycana qarşı işində QHT-lərin qeydiyyata alınmaması birləşmək azadlığının pozuntusu kimi tanınmışdı. Bu işdə hökumətin ərizəçiləri dövlət qeydiyyatına aldığı və müəyyən edilmiş təzminat məbləğinin ödənilidiyi bildirilir. Mirqədirovun işində isə AİHM jurnalist olan ərizəçiyə münasibətdə Konvensiyanın 5-ci, 6-cı və 8-ci maddələrinin pozuntusunu tanımışdı. Bu qərarın zəruri etdiyi fərdi tədbirlər icra edilib, ümumi tədbirlərin icrasına isə digər oxşar qərarların icrası çərçivəsində nəzarət olunacaq.

AŞ NK-nın nəzarəti altında olan aparacı qərarlardan birinin – Par və Hyodo Azərbaycana qarşı işinə nəzarət 1 fevral 2023-cü il tarixdə qapadılıb. Bu məhkəmə işi Azərbaycana səfər edən xarici ölkə vətəndaşları olan ərizəçilərinin üzərində olan külli miqdarda pul vəsaitinin müsadirə edilməsinin qanunsuzluğu iddiaları ilə bağlı idi (1 Saylı Protokolun 1-ci maddəsinin pozuntusu). Azərbaycan hökuməti ərizəçilərdən götürülümüş vəsaiti onlara geri ödəyib.

## *2022-ci ildə icra durumu Avropa Şurası Nazirlər Komitəsində yoxlanılmış işlər*

İcrasına nəzarət qapadılmış qərarlardan başqa AŞ NK 2023-cü ilin birinci yarısında AİHM-in Azərbaycanla bağlı 35-dən çox qərarının – *Anar Məmmədli Qrupuna və Qafqaz Məmmədov Qrupuna daxil olan qərarların və Makuçyan və Minasyan Azərbaycana qarşı qərarının* icra durumunu müzakirə edib.

***Qafqaz Məmmədov Qrupunda*** 30-adək qərarın icrasına nəzarət edilir. Həmin qərarlar müxalifət qüvvələrinin təşkil etdikləri dinc etiraz aksiyalarının dağıdılması ilə ərizəçilərin sərbəst toplaşmaq azadlığının çoxsaylı pozuntuları və aksiya iştirakçılarının saxlanılmaları və qısa müddətə həbs, habelə, azadlıqdan məhrum edilmələri ilə bağlıdır. AİHM bu qərarlarında ictimai toplantıları tənzimləyən qanunvericiliyin proqnozlaşdırıla bilməyən, dəqiq olmamasından və onlardan sui-istifadə edilməklə ictimai toplantılara müdaxilə olunmasının mümkünlüyündən narahatlığını ifadə edib. Bu qrupa daxil edilmiş qərarlardan doğan fərdi tədbirlərin əksəriyyəti icra edilib, yalnız 3 qərar üzrə ərizəçilərə maddi təzminat hələ də ödənilməyib. Ümumi tədbirlərə gəlincə, hökumət Nazirlər Komitəsinə hələ də AİHM qərarlarında müəyyən edilmiş çatışmazlıqların aradan qaldırlması yollarını göstərən fəaliyyət planını təqdim etməyib.

AŞ NK bu qrupa daxil olan qərarların icra durumu ilə bağlı 9 mart 2023-cü il tarixdə qətnamə qəbul edib, icraya nəzarət davam etdiriləcək.

***Anar Məmmədli Qrupunda*** AİHM-in Azərbaycanla bağlı qəbul etdiyi 5 qərarın - Anar Məmmədli, İntiqam Əliyev, İbrahimov və Məmmədov, X.İsmayılova (2), Arif və Leyla Yunusların şikayətləri üzrə çıxarılan qərarlara nəzarət edilir. Həmin qərarlar ərizəçilərin aktiv siyasi və sosial iştirakçılıqlarına, hökuməti tənqidə, insan hüquqları və seçkiləri izləmə sahəsində fəaliyyətlərinə görə Konvensiyanın 18-ci maddəsinə zidd olaraq məhkəməyə qədər həbs edilmələri və azadlıqdan məhrum olunmaları ilə bağlıdır. Bu qərarların icra durumu problemlidir, qərarların ortaya çıxardığı problemlərin aradan qaldırlması üçün tələb olunan fərdi və ümumi tədbirlər həyata keçirilməmiş qalır. Azərbaycan hökumətinin son təqdimatında bildirilir ki, bu qrupda qalan işlər hazırda Ali Məhkəmənin Pelnumundadır, onlara lazımi qaydada baxılması üçün Ali Məhkəməyə məlumat verilib. Təqdimatda qrupla bağlı fərdi tədbirlər haqqında əlavə məlumatın ən qısa zamanda veriləcəyi bildirilir.

AŞ NK bu qrupa dail olan qərarların icra durumu ilə bağlı 9 mart 2023-cü il və 7 iyun 2023-cü il tarixlərdə 2 qətnamə qəbul edib, icraya nəzarət davam etdiriləcək.

## *İcra: ümumi mənzərə*

**2023-cü ilin iyul ayının əvvəlinə olan məlumatlara görə, AİHM-in Azərbaycanla bağlı 407 qərarından indiyə qədər AİHM-in 105-nin icrasına nəzarət qapadılıb. Bu göstərici AİHM-in Azərbaycanla bağlı çıxardığı qərarların ümumilikdə 26 faizini təşkil edir. Azərbaycanla bağlı çıxarılmış qərarların 74 faizi isə icrasını gözləyir. Azərbaycan aparıcı qərarların 19 faizini (12 qərar) icra edib. 51 aparıcı qərar (81 faiz) icra edilməsini gözləyir. Hazırda AİHM-in Azərbaycanla bağlı ümumilikdə 302 qərarı icra edilməsini gözləyir. Həmin qərarların 251-i təkrarlanan işlərdir.**

**Bu göstəricilər AŞ məkanına daxil olan ölkələr arasında ən aşağı gəstəricidir.**

# CƏDVƏLLƏR

## 1. *2023-cü ilin birinci yarısında AİHM-in müəyyən etdiyi* **P O Z U N T U L A R I N** *statistikası*

AİHM 2023-cü ilin birinci yarısında Azərbaycanla bağlı işlərdə ən çox mülkiyyət hüququnun pozuntusunu tapıb. Məhkəmə 21 ərizəçiyə münasibətdə 1 Saylı Protokolun 1-ci maddəsinin pozuntusunu tanıyıb. Məhkəmə 14 ərizəçiyə münasibətdə ədalətli məhkəmə araşdırması hüququnun pozuntusunu tapıb. Məhkəmə 8 ərizəçinin toplaşmaq azadlığı hüququna müdaxilə edildiyi qənaətinə gəlib. AİHM yarım ildə 4 qərarında dövlətin 34-cü maddə ilə üzərinə götürdüyü öhdəliklərə əməl etməməsinə qərar verib.

| *İddia olunan pozuntu (Maddə)* | Maddə 3 (pis rəftar, işgəncəyə məruz qalmamaq h-qu) | Maddə 5 (azadlıq və toxunulmazlıq h-qu) | Maddə 6 (ədalətli məhkəmə araşdırması h-qu) | Maddə 8 (şəxsi həyata hörmət h-qu) | Maddə 10 (ifadə azadlığı h-qu) | Maddə 11 (birləşmək h-qu) | Pr.1-M.1 (mülkiyyət h-qu) |
|---|---|---|---|---|---|---|---|
| *Pozuntu sayı* | *2* | *3* | *14* | *6* | *4* | *8* | *21* |

*Qeyd edilənlərdən başqa Azərbaycan hökuməti 8 ərizəçiyə münasibətdə Konvensiyanın 3-cü və 13-cü, 20 ərizəçiyə münasibətdə 5-ci, 36 ərizəçiyə münasibətdə isə 6-cı maddələrinin pozuntusunu etiraf edib.*

## 2. 2023-cü ilin birinci yarısında AİHM-in müəyyən etdiyi ədalətli əvəzin *(maddi, mənəvi zərər, xərc və məsrəflər)* statistikası

| | *Mənəvi zərər* | *Hüquqi xərc və məsrəflər* | *Cəmi* | *Cəmi (yarım il üzrə)* |
|---|---|---|---|---|
| *Mahiyyəti üzrə çıxarılan qərarlarda müəyyən edilən ədalətli əvəz* | 152,400 avro | 35,130 avro | *187,530 avro* | ***551,490 avro*** |
| *Dostca anlaşmalar əsasında çıxarılan qərardadlarda müəyyən edilən ədalətli əvəz* | 191,400 avro | 59,660 avro | *251,060 Avro* | |
| *Təktərəfli bəyannamələr əsasında çıxarılan qərardadlarda müəyyən edilən ədalətli əvəz* | 105,300 avro | 7,600 avro | *112,900 avro* | |

# AİHM - AZƏRBAYCAN, 2023

## Yarımillik Analiz

MEDIA RIGHTS GROUP